# AZƏRBAYCAN RESPUBLİKASI
# ENERGETİKA NAZİRLİYİNİN KOLLEGİYASI

---

## Q Ə R A R

№ 04

**Bakı şəhəri** **"7" dekabr 2016-cı il**

**Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarının struktur elementlərinin ləğv edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə"nin 5.10.6-cı yarımbəndini rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanının 1.7-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. "Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.
2. Hüquqi münasibətlər şöbəsinə tapşırılsın ki, bu Qərarın qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.
3. Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Kollegiyanın sədri,
Azərbaycan Respublikasının
energetika naziri — Natiq Əliyev